## GÖRKƏMLİ ADAMLARIN ŞIXƏLİ QURBANOV HAQQINDA DEDİKLƏRİ

Çox məsul vəzifə daşısa da, o, Şıxəliliyində qalmışdı. Axşamçağı, gərgin işdən sonrakı yorğunluğunu çıxarmaq üçün hərdən institutumuza gəlib bizi elm, mədəniyyət, ədəbiyyat yenilikləri ilə tanış eləyirdi. Hərdənbir köhnə qaydada şahmat ya nərd oynamağımızdan da qalmırdıq. Evə gedəndə indiki Kukla teatrının qabağındakı kafedə ya qəhvə içir, ya da dondurma ilə sərinlənirdik...

***

Bütün bu yaxşı və pis, adi və heyrətamiz, şad və qəmli, məlum və hələ düyünü açılmamış həqiqətlər, hətta müəmmalar göstərir ki, əslində, Şıxəli Qurbanov Vətənin və xalqının ölümdən sonra da yaşayan, yaşayacaq oğullarından biridir. Dost, alim, yazıçı, xadim oğullarından biri!.. Həm xoşbəxt, həm də ...

***Əziz Mirəhmədov,***
***AMEA-nın müxbir üzvü,***
***Əməkdar elm xadimi***

Onun daxilində ailədən , eldən-obadan, tariximizdən gələn milli ruh var idi.

***Bəkir Nəbiyev,***
***akademik***

Bir ideoloq və ictimai xadim kimi, Şıxıli şəxsiyyətinin və məlahətinin sirri sözün əsl mənasında torpaqdan baş alan təbii, xəlqi, fitri bir həyat çeşməsindəydi. Məhz, bu çeşmənin duruluğu, təbiiliyi, saflığı həm fərdi, həm də milli səviyyədə mənəvi, əxlaqi mübarizə üçün ona yenilməz cəsarət, qanad və qətiyyət təmin edirdi.

***

Öz şəxsi mənindən qıraqda və mənsub olduğu xalqın, millətin ürəkdə, damarda axan qanından və genindən kənarda heç bir əlavə dayağı, arxası, istinad nöqtəsi yox idi. Və Şxəli fenomeni məhz bu iki Arximed dayağı arasında vəhdətdən və bütövlükdən yaranmışdı.

***Yaşar Qarayev,***
***AMEA-nın müxbir üzvü, prrofessor***

Vətənpərvər olmağı mən Şıxəli Qurbanovdan öyrənmişəm. Şıxəli Qurbanov ölümündən sonra da simasını itirməyən bir insan idi, əsl vətənpərvər idi!

***Azad Mrzəcanzadə,***
***akademik***

O qarlı dağlara diqqətlə bax bir,
Bəlkə analardı, ağarıb başı.
Analar dünyaya oğullar verir,
Dünya analara acı göz yaşı.

***Xəlil Rza Ulutürk,***
***Xalq şairi***

Şıxəli Qurbanov! Hər şeydən əvvəl bu adın və soyadın mənasına, mahiyyətinə varmaq istəyirəm. Şıx Əli, Şux Əli, işığ Əli! Üstəlik də Qurban soyadı. Bir diş ağrısına qurban getmək

faciəsi! Görün Allah onun adını və soyadını taleyinə, faciəsinə, şəxsiyyətinə necə də uyğun yaradıb...

***

Şıxəli Qurbanovun 42 illik ömrünə fikir verirəm. Müəllim ömrü, alim ömrü, tədqiqatçı ömrü, şair ömrü, ictimai xadim ömrü**!** Bu ömürlərin hər birini 42 ilə vursaq Şıxəli Qurbanov 200 ildən çox ömür yaşayıb.

***

Şıxəli Qurbanov deyiləndə mən həmişə bahar fəslini, Novruz bayramını, doğan Günəşi, açılan səhəri, dalğalı dənizi, fırtınalı həyatı xatırlayıram. Yana- yana əriyən, sönən yox, söndürülən şamları xatırlayıram.

***Zəlimxan Yaqub,***
***Xalq şairi***

Şıx-Əli Qurbanovun böyüklüyü ondadır ki, o, Azərbaycan xalqının milli şüurunu oyadaraq meydana sözün geniş mənasında AZƏRBAYCANSEVƏRLİK İDEYASI ilə çıxmışdı. Bu möhtəşəm işin əvvəlini o, xalqı özünə və dünyaya tanıtmaqda, onun mentalitetini formalaşdırmaqda görürdü. Novruz bayramının da mənasını açıqlayıb, onu məişət səviyyəsindən qaldırıb, bütövlükdə xalqın bayramı kimi, milli ənənə kimi rəsmiləşdirmişdi.

***

Şıx-Əli Qurbanovun "Sənsiz" pyesi Azərbaycan Dram Teatrında onsuz oynanıldı. İlk tamaşa 1967-ci il iyunun 2-də oldu. Premyerada bəlkə də ilk dəfə idi ki, zal o cür ağzınacan dolmuşdu - adamlar hətta keçidlərdə ayaqüstə dayanmışdılar.

Şıx-Əli müəllimin ruhu o zalda idi. Biz onsuz idik, o da bizsiz. O gün, əminəm ki, hər birimiz, premyerada olanlar da, olmayanlar da, eyni hissləri keçirirdik..

***Fazil Muradəliyev,***
***ictimai-siyasi xadim***

60-cı illərin əvvəllərində Şıx-Əli Qurbanov xalq arasında həm şair və yazıçı, həm də dövrün ən cəsarətli və qorxmaz Azərbaycanlısı kimi tanınmışdı. Danışırdılar ki, o raykomun 1-ci katibi işləyəndə, xüsusən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində ən böyük və məsul bir şöbənin rəhbəri olanda da Kremldə Azərbaycanın milli ləyaqətini müdafiə etməkdən heç vaxt çəkinmirmiş, vəzifəsindən məhrum ediləcəyindən qorxmadan xalqımızın milli adət ənənələrinin, milli sərvətinin qorunması uğrunda Kremldə oturan yüksək vəzifəlilərə etirazını bildirirmiş. Görünür, bu qürurlu Azərbaycanlının mətinliyi, barışmazlığı o vaxt Kremlin xoşuna gəlməmişdi və buna görə də Şıx-Əli Qurbanov Azərbaycan KP MK şöbə müdirliyindən kənar edilmişdi. Kremlə müti icraçılar lazım idi.

***Mirzə Rəhimov,***
***filologiya elmləri doktoru, professor***

Aərbaycan Partiya Tarixi İnstitutu Azərbaycan Kommunist partiyası tarixinə aid bir əsər yazdı. Bu o zaman idi ki, artıq N.Nərimanov bəraət qazanmışdı. Burada ona xüsusi yer verilmişdi.

Onda İmam Mustafayev birinci katib idi. O, Şıxəli Qurbanovun rəhbərlik etdiyi şöbənin işinə və xüsusilə də milli məsələlərin həllinə diqqətlə yanaşırdı. Moskva bu əsərə etiraz etdi. O vaxt Stepan Şaumyanın oğlu və onun tərəfdarları Moskvada yüksək vəzifələrdə idilər. Onların hesablamalarına görə N.Nərimanovun adı kitabda 140 dəfə çəkilirdi. Bunu yoxlamaq üçün Bakıya

xüsusi komissiya gəldi. Onda Şıxəli Qurbanov həmin komissiyanın qarşısında çıxış edərkən, demişdi: "İmkan verin, öz tariximizi özümüz yazaq". Bu sözlərə görə Şıxəli Qurbanov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsindən uzaqlaşdırıldı.

***

İnsanda nə qədər deyilməmiş söz ehtiyatı, nə qədər yumor, nə qədər zarafat, özünə, sözünə inam olarmış, İlahi! O, əsl alim idi, hamını valeh edirdi.

***Şamil Qurbanov,***
***filologiya elmləri doktoru, professor***

Bəli, Şıxəli Qurbanov öz parlaq əməlləri ilə doğma xalqın xatirində əbədi yaşayan bir ziyalı, sözün həqiqi mənasında vətəndaşlıq hissi örnək olan xəlqi və bəşəri insan kimi qalmışdır. Xaraktercə bütöv, monolit, möhkəm iradəli, müstəqil düşüncəli təfəkkür sahibi, yenilikçi, humanizmlə prinsipiallığı varlığında birgə yaşadan bu ziyalı haqqında düşünmək insanda olduqca xoş duyğular oyadır, yaşamaq və mübariz olmaq ehtirasını gücləndirir. Onun cismən olmadığı bu gün də onun ruhu bizimlə yaşadığı üçün cəmiyyətdə rastlaşdığımız mənfiliklərə qarşı barışmazlıq simvolu kimi rəmzi mənaya malikdir. O, mənsub olduğu xalqının xoşbəxtliyi uğrunda rastlaşdığı çətinliklərlə ideoloji silahın bütün növlərindən, etik və estetik meyarlarından yerində istifadə edərək nadanlığa, paxıllığa qarşı vuruşmada davam etmişdir. Belə silahların növləri və tipləri çoxdur. Bu silahların biri də öz kəsəri, ekspressivliyi və kütləviliyi ilə fərqlənən bədii yaradıcılıqdır. Onun pyesləri, liberettoları, səhnə əsərləri, fəlsəfi faciələri Azərbaycan Dram və Musiqili Komediya Teatrlarını yeni məzmun və forma axtarışları ilə zənginləşdirmişdir.

***Ramin Əhmədov,***
***filologiya elmləri doktoru, professor***

Ş.Qurbanov yüksək əqidə, inam sahibi idi. O, lirik, səmimi hisslərini ifadə edəndə də, ikiüzlü, riyakar, yaltaq adamları tənqid atəşinə tutanda da məhz yaxşı bilirdi ki, arancaq böyük məslək, əqidə sahibi olan adamlar xalqla əbədi yaşamağa, onun sevimlisi və həqiqi oğlu olmağa layiqdirlər:

Deyirlər: " Bu cahan bir quru səsdir",
Bəlkə çəkdiyimiz əmək əbəsdir?
Vaxtsız köçəcəyəm mən də dünyadan,
Adımdan, sanımdan bi iz qoymamış,
Yox, yox! Mən deyirəm yaşasın zaman!
Yaşasın iradə, yaşasın inam,
Xalqın ömrü qədər yaşayır insan.

***Xalid Əlimirzəyev,***
***ədəbiyyatşünas alim, professor***

Adətən, bir təbii fəlakət baş verəndə deyirlər ki, Allahın camaata qəzəbi tutub. Mənə belə gəlir ki, Allahın bir xalqa qəzəbi tutanda onun Şıxəli Qurbanov, Yusif Məmmədəliyev, Səməd Vurğun kimi oğullarını tez, vaxtından əvvəl əlindən alır! Xalq üçün ən böyük fəlakət budur!

***Mirzə Rəhimov,***
***filologiya elmləri doktoru, professor***

Haqdan yanan bir ocağın
Od-közüydü Şıxəlimiz!

Xalqın deyə bilmədiyi
Haqq sözüydü Şıxəlimiz!

Ay İncəli, dinsin sazın,
Fəxriydi de, oğul-qızın,
Doğmasıydı xalqımızın,
Əziziydi Şıxəlimiz!

***Ələddin İncəli,***
***AYB-nin üzvü, yazıçı-jurnalist***